# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 81** **Bakı şəhəri, 9 fevral 2024-cü il**

***"Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda ümumi adla göstərilmiş peşələrdə və vəzifələrdə işləyən bütün adlardan (kiçik, böyük, baş, köməkçi və s.) olan işçilər güzəştli pensiya hüququna malikdirlər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı" üzrə:

1.2.1. 10.2-ci bənd üzrə:

1.2.1.1. "a) fəhlələr:" abzasının:

1.2.1.1.1. "susuzlaşdırıcı və duzlaşdırıcı qurğuların operatorları" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| susuzlaşdırma və duzsuzlaşdırma qurğusunun operatorları |

1.2.1.1.2. "mədənlərdə tərkibində kükürdlü hidrogen olan (1,5%-dən çox) qazın kompleks qurğularının hazırlanması ilə məşğul olan nəzarət-ölçü cihazları və avtomatika üzrə çilingərlər" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| neft mədənlərində, neftin saxlanılması və ötürülməsi sahəsində nəzarət-ölçü cihazları və avtomatika qurğularının təmiri və xidməti işləri ilə məşğul olan nəzarət-ölçü cihazları və avtomatika üzrə çilingərlər |

1.2.1.1.3. "neft, qaz və qaz kondensatı hasilatı obyektlərində bilavasitə məşğul olan təmirçi-çilingərlər" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| əsas istehsalat sahələrində neft-mədən avadanlıqlarının, kompressor qurğularının təmiri ilə bilavasitə məşğul olan təmirçi çilingərlər |

1.2.1.1.4. "kompressor qurğularının maşinistləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətirlər əlavə edilsin:

| |
|---|
| əmtəə operatorları |
| nasos qurğularının maşinistləri |
| dəniz özüllərində, estakadalarda stasionar kranların kran maşinistləri |
| qazın yığılması üzrə operatorlar |
| qazpaylayıcı stansiyanın operatorları |

1.2.2. 21.2-ci bənd üzrə:

1.2.2.1. "a) fəhlələr:" abzası ləğv edilsin;

1.2.2.2. "b) üzən heyət:" abzasının "dəniz, çay donanmasının və balıqçılar sənayesi donanmasının gəmi heyəti (daim liman akvatoriyasında işləyən liman gəmiçiləri, yardımçı-xidmət gəmiləri, xidmət, şəhərətrafı və şəhərdaxili yol gəmiləri istisna olmaqla)" sətrində "gəmiçiləri" sözü "gəmiləri" sözü ilə əvəz edilsin;

1.2.2.3. "c) sahil heyəti" abzasından "partladıcılar" və "tryum motorçuları" sətirləri çıxarılsın;

1.2.3. 21.4-cü bənd üzrə:

1.2.3.1. "dəmiryol xətləri hərəkətində parovozların və buxar kranlarının ocaqçıları", "dəmiryol xətləri hərəkətində parovozların və buxar kranlarının maşinistləri" və "dəmiryol xətləri hərəkətində parovozların və buxar kranlarının maşinist köməkçiləri" sətirləri çıxarılsın;

1.2.3.2. "a) fəhlələr:" abzasından "parovozların qazanlarının isti yuyulması ilə məşğul olan qazançılar", "parovozların depo ocaqçıları", "kükürdlü nefti və aşındırıcı maddələri tökübaxıtma məntəqələrində məşğul olan yük və baqajı qəbul edib və təhvil verənlər" və "parovozların qazan yuyucuları" sətirləri çıxarılsın;

1.2.4. 29-cu hissənin "a) fəhlələr:" abzasına "5 m-dən yuxarı yüksəklikdə işləyən (gərginliyi 35 kV və artıq olan) elektrik keçirici hava xətlərinin təmiri üzrə elektrik montyorları" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| texnoloji boru kəmərlərinin quraşdırıcıları |

1.2.5. 31.1-ci bəndin "a) fəhlələr:" abzasından "xüsusi geyimin yuyulması və təmiri üzrə maşinistlər" və "texniki məhsulun ələyiciləri" sətirləri çıxarılsın.

**2.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tarif-ixtisas sorğu kitabçalarının altı ay müddətində bu Qərara uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Keçid müddəaları

3.1. Bu Qərarın 1.1-ci bəndi bu Qərarın qüvvəyə mindiyi tarixdən əvvəlki dövr üçün güzəştli şərtlərlə yaşa görə əmək pensiyasının təyin edilməsi və ya yenidən hesablanması hallarına münasibətdə nəzərə alınır.

3.2. Bu Qərarın qüvvəyə mindiyi tarixədək bu Qərarın 1.2.2-ci (1.2.2.2-ci abzas istisna olmaqla), 1.2.3-cü və 1.2.5-ci yarımbəndlərində nəzərdə tutulan peşə və vəzifələr güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən peşə və vəzifələr hesab edilir.

3.3. Bu Qərarın 1.2.1-ci (1.2.1.1.1-1.2.1.1.3-cü abzaslar istisna olmaqla) və 1.2.4-cü yarımbəndlərində nəzərdə tutulmuş yeni peşə və vəzifələr bu Qərarın qüvvəyə mindiyi tarixdən əvvəlki dövr üçün güzəştli şərtlərlə yaşa görə əmək pensiyasının təyin edilməsi və ya yenidən hesablanması hallarına münasibətdə nəzərə alınmır.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 16 fevral, № 35.- S.11.